# Ulu Öndər Heydər Əliyevin adı Azərbaycan xalqının rəmzinə çevrilib

## *M.F.Axundov adına Milli Kitabxanada Ümummilli Lider Heydər Əliyevin anım günü qeyd olunub*



***Dünən Ulu Öndər Heydər Əliyevin anım günü ilə bağlı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası və YAP Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə tədbir keçirilib. İlk öncə, Ulu Öndərə həsr olunan film nümayiş etdirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Tədbiri giriş sözü ilə açan Milli Kitabxananın direktoru Kərim Tahirov Ulu Öndər Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən, Azərbaycanın tarixindəki rolundan, demokratik-hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu islahatlardan danışıb: "Xalqımızın ən çətin günlərində köməyinə çatan Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunmasına və ölkənin hərtərəfli inkişafına nail olub".

Anım tədbirində YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev çıxış edərək qeyd edib ki, Ulu Öndər Heydər Əliyev həyatı boyu Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyıb, onu bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarıb: "Müstəqilliyimizin möhkəmləndirilməsi, ölkədə dinamik sosial-iqtisadi inkişafın təmin edilməsi, vətəndaş cəmiyyətinin yaradılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin praqmatik fəaliyyəti sayəsində, Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələri sırasına daxil olub".

Tədbirdə YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Ümummilli Lideri Heydər Əliyevin Vətənə, xalqa həsr olunan və hər kəsə örnək olan ömür yolundan danışıb: "Xalqın təkidi və istəyi ilə hakimiyyətə gələn və qayıdışı ilə böyük nailiyyətləri Azərbaycan salnaməsinə daxil edən Ulu Öndər Heydər Əliyev Ona etimad göstərənlərin ümidini tez bir zamanda doğrultdu. Ölkə daxilində aparılan məqsədyönlü işlər, eləcə də, sərhədlərdən kənarda Azərbaycanın yürütdüyü siyasət müstəqil dövlətin təməlinin sütunlarını möhkəmlətdi və əbədiləşdirdi. Heydər Əliyevin siyasəti və uzaqgörənliyi dövlətin gələcək inkişafına yollar açdı. Onun işləyib-hazırladığı inkişaf strategiyası Azərbaycanın dinamik inkişafına səbəb oldu".

Anım mərasimində çıxış edən "Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev bildirib ki, Ulu Öndər Heydər Əliyev həm ənənəvi, həm də müasir lider obrazında təzahür edən, təmsil etdiyi dövlətin və xalqın Ümummilli Liderinə çevrilməyi bacaran və onun çərçivəsini göstərən, onun idealını, obrazını yaradan dahi və müdrik bir şəxsiyyətdir: "Bu gün Azərbaycanda həyata keçirilən böyük tədbirlər, məhz Heydər Əliyevin ölməz ideyalarının həmişəyaşar, əbədi olduğunu bir daha sübut edir. Ulu Öndərimizin uzaqgörənliyi, müdrikliyi və fədakarlığı bu şəxsiyyəti təkcə Azərbaycan xalqının deyil, bütün dünya azərbaycanlılarının Liderliyinə yüksəldib".

Tədbirdə digər çıxış edənlər müasir müstəqil Azərbaycan dövlətinin yaranmasında, inkişafında və dünyada tanınmasında Ümummilli Lider Heydər Əliyevin əvəzsiz rolundan söz açıblar.

**RƏFİQƏ HÜSEYNOVA**